ƏSMƏR ƏKPƏROVA
ADU
esmermirzeyeva@yahoo.com

# MARQARET ETVUDUN "ÜZƏ ÇIXMA" ROMANINDA QADIN MÜBARIZLIYININ ARXITEKTONIKASI

**Açar sözlər:** "Üzə çıxma", Marqaret Etvud, roman, qadın
**Key words:** "Surfacing", Margaret Atwood, novel, female
***Ключевые слова:*** «Постижение», Маргарет Этвуд, роман, женщина

*This above all, to refuse to be a victim. Unless I can do that I can do nothing. I have to recant, give up the old belief that I am powerless and because of it nothing I can do will ever hurt anyone. A lie which was always more disastrous than the truth would have been* [1;16].

Marqaret Etvudun dünyaca məşhur əsərlərindən biri "Üzə çıxma" ("Surfacing") romanı feminist ideyaların təbliğini özündə daşıyan ən gözəl ədəbi nümunə hesab edilir. Əsər qadın və onun kimliyi, şəxsiyyət problemlərindən bəhs edir.

Əsərdə adı çəkilməyən baş qəhrəman qadın öz sevgilisi Joe və eləcə də gənc ailə cütlüyü ilə Kanadadakı doğma şəhərlərinə səyahət edir. Səyahət əsnasında cərəyan edən hadisələrin təsviri əsasında obrazların daxili aləmi və eləcə də, həmin dövr Kanada reallıqları təsvir olunur, bu və ya digər şəkildə müəllifin mövqeyi də açıqlanmış olur. Üç hissədən ibarət olan və müvafiq olaraq, romanda iki həftə ərzində cərəyan edən hadisələr təsvir olunur. Əsər məhdud və qısa müddətdə baş vermiş hadisələri əks etdirmiş olsa da, hadisələrin tutumu, onların baş qəhrəmanın daxili metamorfozlarında oynadıqları rol bu zaman limitinin nisbiliyini təsbit etməyə imkan verir. Səyahətə bir daxili aləm və mənəvi yüklə çıxmış baş qəhrəman iki həftəlik səyahətin sonunda yeni "mən"ini əldə edir, əslində müəyyən şərtlər daxilində itirmiş olduğu "mən"inə qovuşur.

Baş qəhrəmanın anası xərçəng xəstəliyindən vəfat etmişdir. Atası isə itkin düşmüşdür. Məhz, itkin düşmüş atanın tapılması səyahətin ilkin qayəsini təşkil edir. Lakin itkin ata obrazı, burada sanki itkin "mən", itkin identiklik axtarışının simvolu kimi də ortaya çıxır. M.Etvudun erkən tədqiqatçılarından Susan Carpenter Conner özünün yazarın əsərlərində qadın identikliyinin ifadəsi probleminə həsr olunmuş araşdırmasında qeyd etdiyi kimi, M.Etvudun yaradıcılığının başlıca problemi məhz, qadının öz daxili "mən"inə, öz əsl kimliyinə, öz təbii mahiyyətinə qovuşması məsələsidir [6;56].

Bu əsəri Etvud yaradıcılığının əsas postulatlarının tədqiqi baxımından dəyərli edən digər vacib cəhət burada qadınlara qurban olmaqdan vaz keçmək, güclü və mübariz olmaq ideyasının aşılanmasıdır.

Görkəmli ABŞ yazıçısı və ədəbi tənqidçisi Francine Du Plessix Grayin "XX əsrin ən mühüm əhəmiyyətli romanları" sırasında dəyərləndirdiyi "Üzə çıxma" əsərində simvolikadan yararlanması M.Etvud yaradıcılığı üçün yetərincə xarakterikdir. Yeni nəsil ingilis yazarlarından Jill Dawson qeyd etdiyinə görə, qadının cismani varlığının təbiətlə özləşdirilməsi onunla (qadına – Ə.Ə.) bağlı cismani və instinktiv hisslərlə bağlı stereotiplərin dolayı təsdiqi kimi dəyərləndirildiyindən əsər feministlərin etirazları ilə qarşılanmışdır [7].

Əsərin ən təsirli məqamlarından biri evli sevgilisinin emosional təzyiqi ilə abort etməyə qərar vermiş və sonralar illər boyu bunun vicdan əzabını yaşayan baş qəhrəmanın daxili sarsıntılarıdır. P.Singhin qeyd etdiyi kimi, baş qəhrəmanın romanın əvvəlindəki mənəvi, emosional tükənişinin başlıca səbəblərindən biri elə evli rəsm müəllimi ilə olan psixoloji asılılıq münasibətləri idi. O münasibətlər ki, burada baş qəhrəman evli sevgilisinin əlində oyuncaqdan başqa bir şey deyildi [13;215]. Evli sevgilisinin, baş qəhrəmanı başdan çıxartmaq üçün hətta nişan üzüyünü çıxararaq ondan evli olmasını gizlədəcək qədər ləyaqətsiz birinin şəhvət oyuncağı, psixoloji təsir oyuncağı idi.

"Qurban" mövqeyindəki baş qəhrəman "heyvani instiktlərin" əsiri olduğunu etiraf edən sevgisi ilə mükaliməsini xatırlayarkən özünü onunla müqayisə edir. "*He said it wasn't a person, only an animal…I could have said No but I didn't; that made me one of them too, a killer.*" İnqrid Norton əsərdə həmin nəslin (XX əsrin 60-cı-70-ci illərinin gəncliyinin – Ə.Ə.) ən böyük səhvinin ifşa edildiyini vurğulayır. Araşdırıcıya görə, M.Etvud insanların özü olmaq, öz kimliyini ifadə etmək özgürlüyünün rasional ideallarla daxili reallıqların harmoniyası sayəsində əldə edilə biləcyini açıqlayır və yazının öz dili ilə bunu ifadə edir: "*Love without fear, sex without risk, that's what they wanted to be true*"[11]. Yeri gəlmişkən, onu qeyd edək ki, M.Etvud feminist kimi, qadınların ana olmaq seçimlərinin dövlət tərəfindən tənzimlənmə cəhdlərinə, yəni abortun qadağan edilməsi ilə bağlı fərqli ölkələrdə qəbul edilən qanun aktlarına kəskin şəkildə etiraz edir. O, birmənalı şəkildə bu kimi qanunların qadınların qul, kölə durumuna salması mövqeyindən çıxış edir. Etirazını dilə gətirən (*'It is really a form of slavery to force women to have children they cannot afford'* ) yazıçı, qadına nə abortun yasaq edilməsinin, nə də diktator Çauşesku dönəmində olduğu kimi, məcburi şəkildə, səhhətləri buna imkan verib-verməməyindən asılı olmadan dörd uşağa sahib olması tələbinin qoyulmasının humanizmdən kənar addım kimi dəyərləndirir [14]. Abort ətrafında qızğın mübahisələr

zamanı sərt mövqeyini ortaya qoyan M.Etvud qadınların gələcəyini, səhhətini gözdən çıxaran, onların seçim azadlığını çeynəyən qanunu qəbul edən siyasilərə səslənərək sitəm edir və soruşur: *"Sometimes people have to live their dream. So if living their dream means a lot of dead women and orphans, maybe they're going to have to live that dream and maybe they're just then going to have to figure out, 'Who's going to pay for this?'"* [3]. Bütün bu haqsızlıqların cəmiyyətə baha başa gələcəyinin xəbərdarlığını edən M.Etvud əsl feminist ideyaların müdafiəçisi kimi açıq mübarizəyə səsləyir və bütün bu haqsızlıqların hesabını sorur.

Bu məqama toxunmağımız heç də təsadüfi deyil. Belə ki, burada da M.Etvud yaradıcılığı üçün kifayət qədər xarakterik olan təzadlılıqla qarşılaşırıq. Məlumdur ki, artıq "***feminizm klassikası***" sırasında Şimali Amerika təhsil müəssisələrində tədris edilən "***Üzə çıxma***" romanında baş qəhrəmanın aborta görə təəssüf hissini yaşaması, ABŞ araşdırmaçısı Earl G. Ingersollun qeyd etdiyi kimi, ***feminizm ideyalarına xəyanət kimi*** dəyərləndirilirdi [4;40-41]. Bununla belə, böyük əksəriyyət tədqiqatçılar əsəri feminizm manifesti kimi dəyərləndirmək tərəfdarıdırlar. Eynilə M.Etvud kimi Artur Klark ədəbiyyat mükafatına layiq görülmüş ABŞ şairi, yazıçı və ədəbi tənqidçisi Marge Piercy qeyd edir ki, "Üzə çıxma" romanın əsrarəngiz təkrarsızlığı elə ondadır ki, əsər bütün mövzuları əhatə edir və əks etdiridiyi bütün problemləri (romanın yazılışından öncəki son beş ildə M.Etvudu narahat edən bütün əsas problemləri) təhlil edir [12;43]. Lakin bununla belə, Marge Piercy baş qəhrəmanın bəyan etdiyi kimi, "qurban olmaq"dan qaçışın baş tutduğu fikrini də qəbul etmir. Tədqiqatçı onun (baş qəhrəmanın – Ə.Ə.) qalib və ya məğlub, müvəffəqiyyətsiz kişi arasında seçim etmək imkanı var ikən müvəffəqiyyətsizin yanında qalmasını qurban psixologiyasından qurtula bilməmənin təzahürü olaraq dəyərləndir [8;181].

Ümumiyyətlə, onu vurğulamaq istərdik ki, M.Etvud bütün yaradıcılığı boyu qadını güclü görmək istəyir. Hətta o, məhrumiyyətlərə məruz qalan qadın obrazlarını yaratdıqda belə bunu qadın gücünün artırılması, qadınların öz hüquqlarına qarşı daha həssas olması naminə edir. Bu mənada, demək olar ki, Etvud təkcə feminist yazıçı deyil, qadın problemlərinin dilmancı, qadın haqqlarının müdafiəçisidir. Bu M.Etvudun erkən yaradıcılıq dönəmində, yəni feminist ruhlu şeir kitablarının müəllifi kimi tanınmağa başladıqda da belə idi, yaradıcılığının "qızıl çağı"nda da, yəni artıq 70-ci illərdə "***Surfacing***", "***Lady Oracle***", "***The Handmaid's Tale***", "***Cat's Eye***" kimi feminist romanların müəllifi kimi ədəbiyyat mükafatlarına layiq görüləndə də belə idi. M.Etvud hal-hazırda da – harassmentə qarşı ifşa və etiraz kompaniyalarının tüğyan etdiyi bir dövrdə də eyni dərəcə də qadın gücünün tərənnümçüsü və carçısıdır. Qadınların qurbanlıq vəziyyətinin, onların iztirablarının təsvirinə geniş yer verilməsilə

bağlı sualları cavablandıran M.Etvudun fikirləri bu kontekstdə xüsusi maraq doğurur. Belə ki, yazıçı hələ 1982-ci ildə özünün amerikalı həmkarı Judy Lee Klemesrudla mükalimədə bunları vurğulayır: "Mənim qadınlarım iztirab çəkir, çünki əslində mənim söhbət etdiyim qadınların böyük əksəriyyətinin məhz əzab çəkdiyi görünür. ...Lakin siz bu haqqda eşidə bilməzsiniz, çünki bu iztirablar passiv qarşılanır. Lakin kifayət qədər insan var ki, onlar sərt sınaqlarla üzləşdikdə, başını qaz sobasına soxmurlar, özlərini körpüdən atmırlar. Bunun əvəzinə onlar [ mübarizəyə] atılır, öz monstrlarına qarşı çıxır və ona qalib gəlirlər" [9]. Bir sözlə, onlar qurban olmaqdan imtina edirlər.

Əsəri dərin psixologizmi ehtimal ki, sadəcə, M.Etvudun bir yazıçı kimi yüksək professionallığı ilə şərtlənmirdi. Düşünürük ki, bir qadının həyat şərtlərinə boyun əyməkdən imtina etməsilə bağlı belə bir əsərin M.Etvudun öz şəxsi həyatında baş verən bəzi dəyişikliklərlə səsləşməsi heç də təsadüfi deyil. Burada E.Lununin məşhur fikirləri xatırlatmaq yerinə düşərdi. Ədəbiyyatşünas alimin qeyd etdiyinə görə, "yazıçının həyatı və şəxsiyyətinin dərindən öyrənilməsi, onun bioqrafik məlumatlarına, ən xırda detallaradək dəqiqliklə baş vurmaq". E.Lunun daha sonra əlavə edir: ".. eyni dəqiqliklə onun (yazıçının – Ə.Ə.) əsərlərini oxumaq lazımdır ki, müəyyənləşdirəsən ki, o, şüuraltı olaraq, elə öz həyatını qələmə alır. Buna görə də biz, yazıçının avtobioqrafiyası dedikdə, elə onun bütün bədii yaradıcılığını nəzərdə tuturuq" [15;12]. Ədəbiyyatşünasın fikirlərinin təsdiqi olaraq, xatırladaq ki, bu əsərdə qaldırılan digər başlıca problem – Kanada identikliyi, fransız və ingilisdilli kanadalıların milli kimliyi məsələsi məhz, XX əsrin 70-ci illərində (yəni, əsərin yazılma dövründə) ən kəskin qarşıdurma həddinə çatmışdır. Digər tərəfdən də məhz həmin illər M.Etvud birinci həyat yoldaşı ilə ayrılmaq qərarına gəlir. Ehtimal ki, birinci nikahdan övladı olmayan M.Etvudun baş qəhrəmanın dilindən səsləndirdiyi abortla bağlı, yəni övlad itkisi ilə bağlı təəssüflər, onun (baş qəhrəmanın) ana olmaq özləmi elə yazıçının özünün həmin dövrdə yaşadığı hissləri əks etdirir. "***Üzə çıxma"*** romanının baş qəhrəmanı da boşanmış, lakin artıq yeni münasibətləri olan qadındır. Müqayisə üçün qeyd edək ki, əsərin çap edilməsində bir il sonra M.Etvud da artıq yeni münasibətlər qurduğu Qrem Gibsonla (Graeme Gibson) yaşamağa başlayır. Əsərdə baş qəhrəmanın və onun sevgisi Conun (Joe) münasibətlərinin rəvan olmadığı göstərilir. Bununla belə, baş qəhrəman bu münasibətlərin daha bir şansa ehtiyac olduğunu zənn edir. Müqayisə üçün deyək ki, elə əsərin qələmə alındığı dövrdə M.Etvudun sonlandırılmaq üzrə olan ilk nikahı da eynilə belə "ikinci şanslar" sayəsində beş ilə yaxın uzadıla bilmişdi. Maraqlıdır ki, 1968-ci ildə rəsmi nikaha qədəm qoyanadək M.Etvud və Cim Polk (Jim Polk) beş il görüşmüşlər. M.Etvud həmin çətin münasibətləri belə xatırlayır: "*...**after five years of equivocation**, we have been through so many horrible things together I figure we have a* ***good***

***survival chance***" [10;19]. Lakin zaman göstərdi ki, xilasolma şansı tanınan bu münasibətlər heç də uğurlu deyil və daha beş il keçdikdən sonra, M.Etvud həyat şərtlərinə boyun əyməkdən imtina edərək bu izdivacın sonlandırır. Həmin illəri yaradıcılıq deqradasiyası mərhələsi kimi xatırlayan yazıçı, "The Edible Woman" romanı ilə kifayət qədər şöhrətə qovuşmuş olsa da, yazıçı karyerasında durğunluq yaşayır. Bu isə ilk növbədə uğursuz nikah şəraiti və vaxtının böyük hissəsini həyat yoldaşı C.Polkun Anansi nəşriyyatındakı fəaliyyətinə yaxından cəlb olunması ilə bağlı idi [5;10]. Marqaret və Cimin bu əsasda yaranan soyuqluğu artıq "ikinci şansa" rəvac verilmədən, boşanma ilə nəticələndi. M.Etvud yeni həyata qədəm qoydu. M.Etvud öz şəxsi həyatındakı namüəyyənlik dönəmini arxada qoyduğu kimi, onun "Üzə çıxma" romanının adsız baş qəhrəmanı da həyata yeni güclə, əsərin əvvəlində hələ mövcudluğuna inanmadığı daxili güc potensialını işə salmaqla yeni mərhələyə qədəm qoyur. Kanadaya geridönüş, uşaqlıq illərinə baş vurmaq, sanki onun itirilmiş nəsil bağlarını və deməli, daxili güc qaynağını bərpa edir. Əsər qadın identikliyinin arayışı manifestinə çevrilir.

Məhz, bu məqamda anlaşılır ki, baş qəhrəmanın adının olmaması elə məhz, "kimliyin", daxili "mən"in, həmin daxili gücün mövcud olmamasından da qaynaqlanır. Baş qəhrəmanın adsızlığı həm onu – eyni taleyi-qədəri yaşayan istənilən qadınla eyniləşdirmək intensiyasından qaynaqlanır, həm də daxili gücsüz, daxili oriyentirsiz onun bir qadının özü ola bilmədiyini, öz həyatını yaşaya bilmədiyini vurğulamaq üçün seçilmiş müəllif priyomudur. Məlum olur ki, müəllifə görə, özünü tapmayan qadın əslində öz potensial kimliyinin ifadə edə bilmir, həmin potensial kimliyin sadəcə bəsit, rəngsiz kölgəsi olaraq həyatını sürdürür.

"Marqaret Etvudun "Üzə çıxma" romanında təhkiyəçinin öz identikliyi arayışı" adlı araşdırmasında haqlı olaraq qeyd etdiyi kimi, kənar şərtiliklərinin diktatından qurtulan, özünün onlardan asılılıqdan xilas edən baş qəhrəman real "mən"inə, əsl kimliyinə qayıtmaqla yeni həyatının başlanğıcını qoyur və bu manada sonu açıq qalan roman böyük ümidlərlə yekunlaşır [2;47].

Göründüyü kimi, M.Etvud öz qəhrəmanını təbiət qoynunda sərkərdan arayışlarda son nəticədə özünü tapa bildiyini, öz daxili "mən"inin itirilmiş potensialını təkrarən kəşf etdiyini ortaya qoyur. Oxucuya baş qəhrəmanın sonrakı atacağı addımları ehtimal etmək, öz baxış bucağına görə, verilmiş təhkiyənin "davamedici həmmüəllifi" olmağı təklif olunur. Ehtimallar çox olsa da, oxucu artıq bir şeydən dəqiq əmindir: o, artıq baş qəhrəmana görə narahat olmaya bilər. Adsız baş qəhrəman öz kimliyini tapdığından sonra, o, artıq tamdır, bütövdür və öz yolu ilə addımlamaqda davam etmək üçün o, kiməsə sığınmaq ehtiyacı duymur. O, hər şeyin

öhdəsindən gələ biləcək qədər daxili gücə malikdir və yalnız bu səyahət həmin gücə qovuşmağı mümkün edir.

## Ədəbiyyat:


1. Atwood M. Surfacing. Anchor Books Doubleday. 1998, 199p.
2. Amjed J. Dakheel R.M. The Narrator's Search for Her Own Identity in Margaret Atwood's Surfacing // Al-Adab Journal – No. 124 (March) 2018 / 1439, 49-58pp.
3. Acuna K. 'The Handmaid's Tale' author on anti-abortion legislation in Texas: 'It is really a form of slavery to force women to have children they cannot afford' // The Insider, Jun. 4, 2017 https://www.thisisinsider.com/margaret-atwood-anti-abortion-slavery-2017-6
4. Bjerke S. Reviewing Margaret Atwood Gendered Criticism in American Book Reviews, Oslo: The University of Oslo, 2008, 94 pp., https://www.duo.uio.no/bitstream/handle/10852/26259/siljebjerkeMA.pdf?sequence=1
5. Cooke N. Margaret Atwood: A Critical Companion. Greenwood, 2004, 192 p.
6. Conner S. C. Inside Out: Eye Imagery and Female Identity in Margaret Atwood's Poetry. Texas: North Texas State University, 1982 , 98p. https://digital.library.unt.edu/ark:/67531/metadc504416/m2/1/high_res_d/1002775955-Conner.pdf
7. Dawson J. After nature // The Guardian. 20 september, 2003.

Preeti Singh. Feminism in The Surfacing Novel of Margaret Atwood // Paripex - Indian Journal Of Research (PIJR), Volume : 5 | Issue : 4 | April 2016, 213-216pp.

8. Howells C.A. The Cambridge Companion to Margaret Atwood. Cambridge: Cambridge University Press, 2006. 189p.
9. Klemesrud J. 'High Priestess of Angst' // The New York Times, March 28, 1982.
10. Mehta S. Woman"s Search for Identity in the Novels of. Margaret Atwood. Thesis submitted for the Degree of Doctor of Philosophy in English. Nainital: Kumaun University. 2102, 230p.
11. Norton İ. Surfacing By Margaret Atwood // Open Letters Monthly, 1 August, 2010. https://www.openlettersmonthly.com/year-with-short-novels-diving-into-atwood%E2%80%99s-surfacing/
12. Piercy M. "Margaret Atwood: Beyond Victimhood," in American Poetry Review, November/December, 1973, 41-47pp.

https://www.enotes.com/topics/margaret-atwood/critical-essays/atwood-margaret-1939
13. Preeti Singh. Feminism in The Surfacing Novel of Margaret Atwood // Paripex - Indian Journal Of Research (PIJR), Volume : 5 | Issue : 4 | April 2016, 213-216pp.
14. Weiss S. 'The Handmaid's Tale' Author Margaret Atwood Says Antiabortion Laws Are 'a Form of Slavery'. June 6, 2017 https://www.glamour.com/story/margaret-atwood-texas-abortion-rights
15. Словарь литературных терминов. Из: Арта, Москва, Том I, 488 с.

**А.Акберова**

## Архитектоника женского противостояния в романе Маргарет Этвуд «Постижение»

### Резюме

Роман «Постижение» М. Этвуд по праву считается прекрасным литературным примером, несущим в себе пропаганду феминистских идей. Роман повествует о женщине и ее идентичности, проблемах личности. Желание М. Этвуд видеть женщину сильной составляет основу всех ее произведений.

Писательница рассказывает о повышении женского самосознания, большей требовательности к своим правам. Одним из таких, постигших себя, свою идентичность, вновь открывших потерянный потенциал своего внутреннего «я», является образ в романе «Постижение».

Возвращение героини романа М. Этвуд к своим истокам, акцент на понимании собственного «я» олицетворяет в ее лице все «женское». Безымянный герой в конце произведения идет своей дорогой, он ни от кого не зависит. Данное автором в произведении понятие «я» обнаруживает себя как поиск идентичности.

**A.Akberova**

# Architectonics of Female Confrontation in the Novel "Surfacing" by Margaret Atwood

## Summary

The novel "Surfacing" by M. Atwood is considered to be an excellent literary example, carrying propaganda of feminist ideas. The novel tells about a woman and her identity, personality problems. M. Atwood's desire to see a woman strong is the basis of all her works.

The writer talks about raising women's identity, the greater demands on their rights. One of those who have comprehended themselves, their identity, and rediscovered the lost potential of their inner self, are the character in the novel "Surfacing".

The return of the heroine of M. Atwood's novel to his origins, the emphasis on understanding one's own "I" personifies everything "feminine" in her face. Nameless hero at the end of the work goes its own way. This concept of "I" reveals itself as a search for identity.

**Rəyçi: Aynur Sabitova**
**Filologiya elmləri doktoru,professr**